**1.** $K$ və $L$ nöqtələri $ABC$ üçbucağının, uyğun olaraq, $BC$ və $AC$ tərəflərinin orta nöqtələri olarsa, ştrixlənmiş hissənin sahəsi $ABC$ üçbucağının sahəsinin hansı hissəsini təşkil edir?

A) $\frac{1}{2}$ B) $\frac{2}{3}$ C) $\frac{2}{5}$

D) $\frac{1}{4}$ E) $\frac{1}{3}$




*(6 aprel 2025, DİM)*

**2.** $ABCD$ düzbucaqlısının $B$ təpəsindən $AC$ diaqonalına $BM$ perpendikulyarı çəkilmişdir. $AM = 9\text{sm}$, $MC = 16\text{sm}$ olarsa, düzbucaqlının sahəsini tapın.




*(9 mart 2025, DİM)*

**3.** $ABC$ üçbucağında $\angle C = 90^\circ$, AD isə tənböləndir. $AB = 30$ və $CD : DB = 3 : 5$ olarsa, $S_{\Delta ABC}$-ni tapın.




*(14 aprel 2024, DİM)*

**4.** Rombun iti bucağı $60^\circ$ , kiçik diaqonalı 3 sm-dir. Rombun xarici oblastında olmaqla tərəfləri üzərində qurulmuş kvadratların sahələri cəmini tapın.

*(10 mart 2024, DİM)*

**5.** $ABC$ üçbucağında $\angle C = 90°$, $BC = 8$ sm, $M$, $N$, $E$ nöqtələri isə uyğun olaraq $AC$, $CB$ və $AB$ tərəflərinin orta nöqtələridir. $S_{\Delta MNE} = 10\ \text{sm}^2$ olarsa, $AC$-nin uzunluğunu tapın.




*(10 mart 2024, DİM)*

**6.** Hündürlüyü 4 sm, orta xətti 13 sm olan trapesiyanın sahəsini tapın.

A) 44 $\text{sm}^2$ B) 84 $\text{sm}^2$ C) 46 $\text{sm}^2$

D) 52 $\text{sm}^2$ E) 42 $\text{sm}^2$

*(3 mart 2024, DİM)*

**7.** Uzunluğu enindən 8 sm çox olan 3 eyni düzbucaqlı şəkildəki kimi verilmişdir. AB=76 sm olarsa, bu fiqurun ümumi sahəsini tapın.




*(2 aprel 2023, DİM)*

**8.** Şəklə əsasən fiqurun sahəsini tapın.




*(2 aprel 2023, DİM)*

**9.** Bərabərtərəfli üçbucağın medianlarının kəsişmə nöqtəsindən tərəfə qədər olan məsafə 4 sm olarsa, bu üçbucağın sahəsini tapın.

*(12 mart 2023, DİM)*

**10.** Diaqonallarının uzunluqları cəmi 28, tərəfi 10 olan rombun sahəsini tapın.

*(5 mart 2023, DİM)*

**11.** $ABCD$ paraleloqramının sahəsi 64, $CE = ED$ olarsa, $ADE$ üçbucağının sahəsini tapın.




*(3 aprel 2022, DİM)*

**12.** Diaqonalı 4 sm olan kvadratın sahəsini ($sm^2$-lə ) tapın.

*(13 mart 2022, DİM)*

**13.** ABC üçbucağında BM=13 sm, CM=27 sm və $S_{\Delta ABC} = 200\ sm^2$ olarsa, $S_{\Delta AMB}$-ni tapın.




*(12 mart 2022, DİM)*

**14.** $\triangle ABC$-də $CD = CB$, $AC = 13$, $AD = 6$, $DB = 12$ olarsa, $S_{\Delta ACD}$-ni tapın.




*(6 mart 2022, DİM)*

**15.** ABC üçbucağının AM və CN medianları perpendikulyardırlar. $AM = 5$ sm, $CN = 6$ sm olarsa, ABC üçbucağının sahəsini tapın.




*(5 mart 2022, DİM)*

Düzgün cavablar

1D  2 (300)  3 (216)  4 (36)  5 (10)

6D  7 (1680)  8 ($25\sqrt{3}$)  9 ($48\sqrt{3}$)

10 (96)  11C  12 (8)  13 (65)  14 (15)

15 (20)